**AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ**
**KOLLEGİYA QƏRARI**

**№ 7-N**

**Bakı şəhəri** **4 iyul 2025-ci il**

**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyasının 2024-cü il 24 oktyabr tarixli 1-N nömrəli qərarı ilə təsdiq edilmiş "İcra sənədinin icrası ilə bağlı borclunun əmlakının elektron hərracda satılması Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 9.22-ci bəndini və 19-cu hissəsini rəhbər tutaraq Kollegiya

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyasının 2024-cü il 24 oktyabr tarixli 1-N nömrəli qərarı ilə təsdiq edilmiş "İcra sənədinin icrası ilə bağlı borclunun əmlakının elektron hərracda satılması Qaydası"nda dəyişiklik təsdiq edilsin (əlavə olunur).
2. Bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi təmin olunsun (E.Nəsibov).
3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildikdən sonra 72 saat müddətində rəsmi dərc edilməsi üçün zəruri tədbirlər görülsün (L.Hüseynzadə).
4. Qərar aidiyyəti ədliyyə orqanlarına göndərilsin.

**nazir**
**III dərəcəli dövlət ədliyyə müşaviri** **Fərid Əhmədov**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin
Kollegiyasının 4 iyul 2025-ci il tarixli 7-N
nömrəli qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyasının 2024-cü il 24 oktyabr tarixli 1-N nömrəli qərarı ilə təsdiq edilmiş "İcra sənədinin icrası ilə bağlı borclunun əmlakının elektron hərracda satılması Qaydası"nda dəyişiklik**

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyasının 2024-cü il 24 oktyabr tarixli 1-N nömrəli qərarı ilə təsdiq edilmiş "İcra sənədinin icrası ilə bağlı borclunun əmlakının elektron hərracda satılması Qaydası"na aşağıdakı məzmunda 7.2-1-ci bənd əlavə edilsin:

"7.2-1. Tələbkar, borclu, habelə hərracda iştirak edən şəxslər hərracın gedişini "Mobil icra" proqram təminatı vasitəsilə izləyə bilərlər. Hüquqi şəxs olan tələbkar, borclu və digər hərrac iştirakçıları "Mobil icra" proqram təminatı vasitəsilə hərracın gedişini portal sahibi ilə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun bağlanılmış müqaviləyə müvafiq olaraq izləyirlər.".